*Bakı Dövlət Universiteti - 105*

**UOT 94(479.24)**

**AYDIN MƏMMƏDOV**
*BDU-nun Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru*
**aydin.mmmdov.67@ mail.ru**

# XX ƏSRİN İKİNCİ YARISI-XXI ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKI DÖVLƏT UNİVERSİTETİNİN TARİXÇİ-MƏZUNLARININ TƏDQİQAT ƏSƏRLƏRİNDƏ TARİXİ DEMOQRAFİYA MƏSƏLƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/106/43-53

*Azərbaycanda əhalinin təbii və mexaniki artımı, məskunlaşması, miqrasiyası həmişə tarixən xalqımıza məxsus sosial-iqtisadi, ictimai-siyasi, mədəni-mənəvi xüsusiyyətlərlə sıx şəkildə bağlı olmuşdur. Qeyd etmək lazımdır ki, ixtiyari demoqrafik tədqiqat əhali artımı, məskunlaşması, miqrasiyası ilə bağlı prosesləri tarixi zaman konteksində öyrəndiyinə ğörə ümumi demoqrafiya, yaxud demoqrafiyanın istənilən sahəsi ilə tarixi demoqrafiya arasındakı sərhəd çox şərtidir. Demoqrafik münasibətlər bəşəriyyətin bütün tarixi boyu, hər zaman, cəmiyyətin bütün sferaları ilə, xüsusən də istehsal münasibətləri ilə sıx bağlılıq şəraitində mövcud olsa da müstəqilliyini heç zaman itirməmişdir. Başqa sözlə desək, iqtisadi zərurətin diktə etdiyi istehsal münasibətlərinin insanların həyatında rolu nə qədər böyük olsa da, insan nəslini davam etdirmək zərurətindən yaranan, başlıcası isə obyektiv surətdə heç nədən asılı olmayaraq mövcud olan demoqrafik münasibətlər cəmiyyətin həmişə ən prioritet, aparıcı sahəsi olmuş, olaraq da qalmaqdadır.*

*Məqalədə hazırda 105 illik yubileyini təntənə ilə qeyd etdiyimiz doğma Bakı Dövlət Universitetimizdə təhsil almış və ya işləmiş, o cümlədən XX əsrin ikinci yarısı-XXI əsrin əvvəllərinə aid tədqiqat əsərlərində tarixi demoqrafiya elementlərini əks etdirən alimlərimizin yaradıcılığı araşdırılır.*

*Açar sözlər:* Bakı Dövlət Universiteti, əhali artımı, əhali məskunlaşması, tarixi demoqrafiya, Azərbaycan tarixşünaslığı.

***Giriş.*** Demoqrafik münasibətlərin hər bir tipi ailə ənənələrinin tarixi təcrübə ilə qazanılmış, seçilmiş, qorunub saxlanılmış dəyərlər sisteminə malikdir. Tarixi inkişaf, məhsuldar qüvvələrin tərəqqisi və insanların həyat tərzində baş verən dəyişikliklər demoqrafik münasibətlərin xarakter və xüsusiyyətlərini vaxtaşırı dəyişir. Bu fikri özündə bu və ya digər şəkildə əhali problemlərini əks etdirən istənilən tarixi araşdırma haqqında da söyləmək olar. Dünya əhalisinin sürətli artımı, günü-gündən artan miqrasiya problemləri, ailə və nikah münasibətlərinin yeni forma və məzmun kəsb etdiyi müasir dövrümüzün böhranlı demoqrafik problemlərini düzgün başa düşmək, onları obyektiv tədqiq etmək üçün Vətən tarixini tədqiq edən tarixçilərimizin əsərlərinin öyrənilməsi,böyük əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan tarixinin müxtəlif dövrlərinə dair tədqiqat əsərlərində əhali, miqrasiya, eləcə də əhalinin artım və azalma səbəbləri bu və ya digər formada öz əksini tapdığına görə onlar da xalqımızın keçdiyi tarixi demoqrafik inkişaf yolunun öyrənilməsində mühüm rol oynayırlar.

Hər bir xalqın milli özünüdərk şüurunun, milli mədəniyyətinin inkişafında, sosial-iqtisadi, o cümlədən cəmiyyətin bütün sahələrinin tərəqqisində elm və təhsilin böyük rolu danılmazdır. Böyük tarixi zaman kəsiyində müstəqilliyini itirmiş Azərbaycan xalqı öz milli təhsil sistemini yarada bilməmiş, yalnız 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə özünün ilk dünyəvi univer-

sitetini yaratmaq imkanı əldə edə bilmişdir. Məhz bu səbəbdən də milli təhsil tariximizdə, qəlbimizdə şərəfli yeri olan Bakı Dövlət Universiteti hər bir Azərbaycan vətəndaşı üçün əsl qürur və iftixar mənbəyidir. Bütün bu illər ərzində universitetin böyük uğurlar qazanmasında, gənc nəslin elmi biliklərə yüksək səviyyədə yiyələnməsində və təlim-tərbiyəsi işində təbii ki, orada çalışan müəllimlərin böyük rolu danılmazdır. Təsadüfi deyil ki, Bakı Dövlət Universitetinin 75 illik yubileyində Heydər Əliyev demişdir ki, gənclərimizin təlim-tərbiyəsi işində diqqət və qayğı nəinki azaldılmamalı, əksinə indiki şəraitdə daha da artırılmalıdır: "*Mən əminəm ki, müəllimlərimizin, ziyalılarımızın əksəriyyəti belə düşünür, belə yaşayır və bütün bu çətinliklərə baxmayaraq, öz vəzifələrini şərəflə yerinə yetirir və bundan sonra da yerinə yetirəcəklər*" [11, s.60].

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 26 noyabr 2019-cu il tarixində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə keçirilən mərasimdə iştirak edərkən: "*Bakı Dövlət Universiteti 100 il ərzində Azərbaycanın hərtərəfli inkişafına böyük töhfələr vermişdir... Yüz il ərzində universitetin 200 minə yaxın məzunu Azərbaycanın müxtəlif sahələrində öz bilik və bacarıqlarını nümayiş etdirmişdir*" – deyə, söyləmişdir. Məzunlar arasından görkəmli şəxslər, alimlər, ictimai-siyasi, o cümlədən dövlət xadimləri, mütəxəssislər çıxmışdır. Onların bir çoxu Azərbaycanın hərtərəfli inkişafına öz dəyərli töhfəsini vermişdir. Bakı Dövlət Universitetinin məzunları arasında təkcə bu təhsil ocağını deyil, doğma Azərbaycanımızı hər yerdə tanıdan, dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyevdir. Ümummilli liderin 1999-cu ilin 9 dekabrında imzaladığı "Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında" sərəncamı ölkəmizdə son iki əsrdə cərəyan edən demoqrafik proseslərin tarixini, inkişaf dinamikasını, o cümlədən əhali artımı və məskunlaşması ilə bağlı gələcək planları özündə əks etdirən son dərəcə qiymətli sənəddir. Sözügedən sərəncamda Şimali Azərbaycanda əhalinin ilk dəfə 1897-ci ildə siyahıyaalınmasından 1997-ci ilədək, tam bir əsr ərzində xalqımızın üzləşdiyi demək olarki, bütün demoqrafik proseslərin tarixinə konkret statistik rəqəmlərin müqayisəli, elmi-obyektiv təhlili əsasında nəzər salınır: "Azərbaycan Respublikasının əhalisinin sayı 1897-1997-ci illəri əhatə edən 100 il ərzində dünya əhalisinə nisbətən daha sürətlə, yəni 4,3 dəfə artaraq 1807 min nəfərdən 7847,5 min nəfərə gəlib çatmışdır" [1]. Sözügedən sərəncamdan bəlli olur ki, həqiqətən də Azərbaycanda əhali artımının və azalmasının obyektiv səbəblərini ilk növbədə nəzərdən keçirilən hər bir tarixi dövrün ona xas olan siyasi-iqtisadi və sosial-ictimai xüsusiyyətlərində axtarmaq lazımdır.Yəni, əlverişli sosial-iqtisadi amillər həmişə əhali artımının artması, bunun əksi isə azalması üçün əlverişli şərait yaradır.

Sözügedən sərəncamda 90-cı illərin əvvəllərində, SSRİ-nin dağılmasından sonra Azərbaycanın yeni demoqrafik mənzərəsi də geniş və hərtərəfli surətdə təhlil edilir: "Hazırda Azərbaycan xalqının mənəviyyatına xas olmayan belə bir hal da diqqəti cəlb edir ki, bir tərəfdən 25-29 yaşlı gənclər arasında subayların sayına görə respublikamız MDB ölkələri arasında ilk yerlərdən birini tutur, digər tərəfdən isə nikahsız doğulanların bütün doğulanlar arasında xüsusi çəkisi 1990-1997-ci illərdə 2,8 dəfə artaraq 2,6 faizdən 7,3 faizədək qalxmışdır". Belə bir hal isə qanunauyğun bir şəkildə doğum səviyyəsinin sürətlə aşağı düşməsinə, ölüm səviyyəsinin isə əksinə səbəb olmuşdur: "Əhalinin hər 1000 nəfərinə düşən ölüm səviyyəsi isə 1990-1994-cü illərdə, yəni atəşkəs dövrünədək 6,0 nəfərdən 7,3 nəfərədək qalxmış və ya 21,7 faiz artmışdır". Sərəncamda yuxarıda sadalanan mənfi halların qarşısının alınması üçün əhalinin kəmiyyət-keyfiyyətinə normal təkrar istehsal üçün zəruri olan doğum səviyyəsini təmin edə biləcək hərtərəfli şəraitin yaradılması üçün görüləcək tədbirlər xüsusi olaraq vurğulanır. Başqa sözlə desək, Azərbaycan Respublikası Prezidentinin sözügedən sərəncamı xalqımızın demoqrafik mənzərəsini tarixi aspektdə son dərəcə real əks etdirir [19].

İstər 1969-1982-ci illərdə, istərsə də müstəqillik dövründə Azərbaycana rəhbərlik etdiyi vaxtlarda Heydər Əliyevin xalqımızın sosial və maddi təminatının yaxşılaşdırılması üçün gördüyü ardıcıl səylər nəticəsində ölkə əhalisinin demoqrafik mənzərəsində inkişaf dinamikası aydın görünürdü. Azərbaycan tarixçilərinin tədqiqat əsərlərində bu həqiqəti aydın şəkildə müşahidə etmək olar. Akademik Y.Mahmudovun təbirincə desək: "Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi və Moskvada fəaliyyət göstərərkən doğma yurdun keşiyində durduğu dövrdə – 1969-1985-ci illərdə Azərbaycanda 213 yeni iri sənaye müəssisəsi istismara verilmiş, dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac olunmuşdu. Həmin illər ərzində Azərbaycanın milli gəlirinin ümumi həcmi 2,5 dəfə artmışdı." [17,

s.115]. 1962-ci ildə Bakı Dövlət Universitetinin Tarix fakültəsini fərqlənmə diplomu ilə bitirən, uzun illər həmin fakültənin dekanı olan, orada dərs deyən, əsərlərində Azərbaycanın Qərbi Avropa dövlətləri ilə diplomatik əlaqələrinin öyrənilməsinə, avropalı səyyahların məlumatlarına geniş yer ayıran görkəmli tədqiqatçı **Yaqub Mahmudovun** demək olar ki, bütün əsərlərində Azərbaycanın istər siyasi və sosial iqtisadi, istərsə də tarixi demoqrafik baxımdan maraq kəsb edən ailə quruculuğu, nikah məsələlərinə dair son dərəcə qiymətli bilgilər də öz əksini tapmışdır. Trabzon imperatorunun qızı Feodora ilə evlənmək üçün ona müraciət edən Uzun Həsən ondan: "Biz xristianıq siz bütpərəstsiniz bu necə mümkündür?-deyə, eşidəndə:" Bu məni narahat etmir" – deyə, söyləmişdi. Başqa sözlə desək, Uzun Həsən özünə həyat yoldaşı seçərkən onun dini mənsubiyyətinə deyil, əsasən gələcək arvadının ağlına, xoşxasiyyətli olmasına böyük önəm vermişdir. Buradakı məlumatlardan məlum olur ki, azərbaycanlı ailəsi evinə, ocağına gəlin seçərkən onu ağıllı, xoşxasiyyətli olmasına xüsusi önəm vermişdir [18, s.26].

Qeyd etmək lazımdır ki, müasir tədqiqatçılar arasında belə bir fikir, fərziyyə üstünlük təşkil edir ki, ibtidai insanlar diri heyvanları ovlamaqdan daha çox, ölü heyvanların leşini toplamağa üstünlük vermişlər. Həqiqətən də alt paleolit dövründə yaşayan əcdadlarımızın fiziki imkanlarını həmin dövr yırtıcı heyvanlarının ölçüləri, gücü ilə müqayisə etsək bu fikri olduqca məqbul hesb etmək olar. Bəlkə də elə qədim əcdadlarımızın fiziki imkanlarının o dövrün yırtıcıları ilə müqayisədə çox zəif olması səbəbindən onlar tez-tez yaşayış yerlərini dəyişməyə, daha təhlükəsiz ərazilərdə məskunlaşmağa məcbur olmuşlar. Məşhur Azərbaycan arxeoloqu, 1946-1951-ci illərdə BDU-nun tarix fakültəsində təhsil almış, 1976-1993-cü illərdə universitetin Arxeologiya və etnoqrafiya kafedrasının müdiri olmuş **Məmmədəli Hüseynov** 1966-cı ildə nəşr olunan "Yeraltı aləmə səyahət" adlı kitabında məhz bu məsələdən bəhs edərək sözügedən dövrdə təbii amillərin qədim insanların tez-tez yaşadıqları, məskun olduqları yerləri dəyişməsinə, onları məcburi surətdə miqrasiyaya sövq etməsindən bəhs edərək yazırdı: "Çaylardan birisi öz yatağını dəyişib yeni sahə ilə axmağa başladıqda bəzi düşərgələr çayın rastına düşürdü. Çay düşərgəni dağıdıb bir yerdən başqa yerə aparıb çıxarırdı. ... Deməli, təbii hadisələrlə əlaqədar olaraq insanın özü kimi onun məskən tutub yaşadığı yerlər də həmişə öz yerlərini dəyişməli olurdu" [13; 2, s.153]. Maraqlıdır ki, M.Hüseynov da ilk "Homo habilis"lərdən danışarkən: "Qazıntı nəticəsində aşkar edilmiş əmək alətlərindən və onların hazırlanmasının primitiv texnikasından görünür ki, Şell-Aşel dövründə istehsal qüvvələrinin səviyyəsi hələ çox aşağı olmuşdur. Bununla yanaşı, bir düşərgədə həyat sürən insanların dəstələri böyük olmamışdır. Qazıb üzə çıxardığımız düşərgənin sahəsi 200 m2dən çox deyildir. Belə kiçik sahədə yaşayanların sayı da 40-50 nəfərdən çox ola bilməzdi. Onlar yeməli həşəratların, bitkilərin, istehsal üçün xammalın toplanması kimi işləri birlikdə, kollektiv surətdə görürdülər" – deyə, yazmışdır. Müəllifin fikrincə, Azıx adamı dünyada ən qədim tapıntılardan biridir: "Azıx adamının dövrünə aid tapıntılar dünyanın üç-dörd nöqtəsində aşkar edilmişdir. ...Azıx mağarasının lap alt təbəqələrindən birində aşkar edilmiş daş məmulat öz hazırlanma texnikasına və formasına görə şell-aşel dövrünü xarakterizə edən tapıntılardandır [12, s.20-23]. Müəllif haqlı olaraq 1970-80-ci illərdə nəşr olunmuş "Azərbaycan arxeologiyası (daş dövrü)", "Azərbaycanın qədim paleolit dövrü", "Azərbaycanda paleolit" və d. qiymətli əsərlərində geniş şəkildə öz əksini tapmışdır (Гусейнов М.М. Археология Азербайджана (каменный век). Баку, АГУ, 1975, 162 с; Гусейнов М.М. Древний палеолит Азербайджана: культура Куручай и этапы её развития: 1,500,000-70 тысяч лет назад. Баку, Элм, 1985, 71 с; Гусейнов М.М. Палеолит Азербайджана (в соавторстве с А.К. Джафаровым). Баку, Элм, 1986, 17 с). adlı tədqiqat əsərlərində ulu əcdadlarımızın Azərbaycan ərazisində artıq şell-aşel dövründə geniş şəkildə məskunlaşması qənaətinə gəlir: "Bütün bu amillər ilk insanların Azərbaycan ərazisində hələ şell-aşel dövründə yayılmasını göstərir" [12, s.23].

Alt paleolit dövründə ibtidai insan sürüləri, yaxud ulu icma şəklində yaşayan qədim əcdadlarımızın demoqrafik artımında tədqiqatçı-alimlərimizin fikrincə coğrafi amillər heç də az rol oynamamışdır. 1946-1951-ci illərdə BDU-nun tarix fakültəsində təhsil almış **Teymur Bünyadov** 1960-cı ildə nəşr olunan "Azərbaycan arxeologiyası oçerkləri" adlı kitabında tarixi demoqrafiya məsələlərinə geniş diqqət ayıraraq, Azərbaycanda artıq paleolitin əvvəllərində təbii-coğrafi amillərin insanların məskunlaşması və nəsil artımı üçün əlverişli şərait yaratması amilini ön plana çəkmişdir: "İbtidai in-

sanlar təbii şəraitdən çox asılı olmuşlar. Odur ki, onlar özləri üçün əlverişli yerlərdə məskən salmışlar. Bu ondan irəli gəlir ki, ibtidai insanların əmək alətləri və silahları çox sadə, təbiətə qarşı mübarizələri isə, sonrakı dövrlərə nisbətən xeyli zəif olmuşdur" [3, s.28]. Müəllif sözügedən kitabında fikrinə davam edərək yazır: "Əlverişli şəraitdə yaşayan ibtidai insanlar, müxtəlif yabanı bitkilərin meyvə və köklərini toplamaqla məşğul olmuşlar. Bu dövrdə onlar isti iqlimdə yaşayan heyvanları ovlamaqla öz güzəranlarını keçirmişlər. ... İnsanlar iqlimin istiliyi ilə əlaqədar olaraq paltarsız gəzmiş və istədikləri yerlərdə kiçik qruplarla məskən salıb yaşamışlar" [3, s.28].

"Azərbaycanda maldarlığın inkişafı tarixindən" adlı tədqiqat əsərində də T.Bünyadov Azərbaycanın topoqrafik quruluşu və iqlim şəraitinin köçmə maldarlığının yaranması üçün əlverişli zəmin yaratması fikrini xüsusi olaraq vurğulamışdır [4, s.12]. Başqa sözlə desək O, məhz təbii-coğrafi amillərin sayəsində heyvan sürülərinin sayının sürətlə artmasını Vətənimizdə əhali məskunlaşmanın bir növü olan yarımköçəri həyat tərzinin meydana gəlməsi üçün vacib şərtlərdən biri hesab etmişdir: "Bu formanın inkişaf edib, daha geniş şəkildə yaranmasına səbəblərdən biri də heç şübhəsiz, heyvan sürülərinin, xüsusilə xırdabuynuzlu heyvanların sayının tez və sürətlə artması olmuşdur" [4, s.12]. T.Bünyadovun fikrincə yarımköçəri həyat tərzinin yeni yarandığı dövrlərdə yerli əhali heyvan sürülərini yaşayış yerinin ətrafında deyil, bir qədər aralı olan örüşlərdə otarır, axşamlar isə geri qaytarırdılar. Sonralar maldarlıq daha da inkişaf etdikcə maldarlar axşamlar yaşayış yerlərinə qayıtmayıb təxminən oradan 15 km aralı iqlim və otlaqları əlverişli olan düşərgələr seçirdilər.Yalnız soyuqların düşməsi və yaşayış yerlərinin ətrafında qoruğa qoyulmuş otlaqların əhəmiyyətli yem bazasına çevrilməsindən sonra insanlar heyvan sürülərini daimi məskunlaşdıqları ərazilərə qaytarırdılar. Müəllifin fikrincə, məskunlaşmasının belə forması artıq e.ə. III minillikdə Kür-Araz mədəniyyəti dövründə daha da inkişaf etmişdi. [4, s.12-13].

1966-1973-cü BDU-nun tarix fakultəsində təhsil almış **Əsədulla Cəfərovun** tədqiqat əsərlərində tarixi demoqrafiyanın mühüm problemlərindən biri olan əhalinin məskunlaşması öz əksini tapdığına görə mühüm rol oynayır. Belə ki, O, 1989-cu ildə "Azərbaycan abidələri" adlı elmi məqalələr toplusunda" dərc etdirdiyi "Azərbaycan qədim insan məskənidir" adlı məqaləsində Vətənimizin ən qədim dövrlərdən məskunlaşmaya məruz qalmasını, Azıx ibtidai insanların burada 1,2 milyon il bundan əvvəl məskən salmış, 120 min il əvvəl isə mağaranı tərk etmişlər.Müəllif Azıx mağarasını oradakı mədəni təbəqələrin zənginliyinə görə dünyada hələlik analoqu olmayan yeganə abidə hesab edir. Elə bu səbəbdən də oranı yaşayış üçün ən uzun müddətli məskunlaşma yeri kimi qiymətləndirir: "Aparılan elmi tədqiqatlar göstərir ki, burada istər məskunlaşma, istər nəsil artımı, istərsə də əmək alətlərinin hazırlanması üçün lazım olan materialların zənginliyi ulu əcdadlarımızın diqqətindən yayınmamış, ...ibtidai insanlar yenidən, 20 min keçdikdən sonra mağaraya qayıtmış və burada daha 50 min il yaşayış olmuşdur" [6, s.21-29]. Ə.Cəfərov 1990-cı ildə nəşr edilən "Quruçay dərəsində" adlı monoqrafiyasında ibtidai cəmiyyətdə əhali məskunlaşması məsələlərini, ulu əcdadlarımızın sosial-iqtisadi vəziyyətini faktoloji materiallar əsasında fundamental şəkildə tədqiq etməyə nail olmuşdur [8]. Müəllif ibtidai cəmiyyətə dair digər tədqiqat əsərlərində də, Azərbaycan ərazisində məskunlaşma prosesinin fasiləsiz olaraq davam etməsi fikrini əsaslandıra bilmişdir. Belə ki, müəllif 1994-cü ildə işıq üzü görən "İnsanlığın səhəri" adlı əsərində yazır: "Azərbaycan ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı Mustye mədəniyyətinə aid Azıx, Tağlar, Daşsalahlı, Qazma və Buzeyir mağara düşərgələri aşkar olunmuşdur" [7, s.43]. Müəllif Azərbaycan ərazisində tunc dövrü və sonrakı dövrlərdə də məskunlaşma prosesinin geniş vüsət alması qənaətinə gəlmişdir: "Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Qarabağ ərazisi tunc dövrünün yaşayış məskənləri ilə də zəngindir" [7, s.25].

Qeyd etmək yerinə düşərdi ki, 1946-cı ilə qədər ölkəmizdə Qafqaz Albaniyasının araşdırılaraq öyrənilməsi əsasən kəşfiyyat xarakteri daşımış, bu yerlərin arxeoloji baxımdan tədqiqi çox zəif surətdə aparılmışdır. 1954-1959-cu illərdə BDU-nun tarix fakültəsində təhsil alan, bir qədər sonra S.Qazıyev məktəbinin ən layiqli yetirmələrindən biri olan **Fazil Osmanov** Qafqaz Albaniyasının mərkəzi hissəsini əhatə edən Şirvan və Həftəran ərazilərindəki Göyçay, Girdimançay, Ağsuçay hövzələrinin e.ə. IV – b.e. III əsrlərinə aid olan ərazilərimizin arxeoloji baxımdan öyrənilməsində, əhali məskunlaşmasına dair zəngin maddi mədəniyyət nümunələri əsasında tədqiq olunmuşdur. Müəllifin "İsmayıllı rayonu ərazisində 1964-cü il arxeoloji tədqiqat işlərinin hesabatı". Azərbaycan SSR EA Tarix

institutunun elmi arxivi, № 5779. S.4-6; “Шыхдере келлеси”. Сб. АО 1971 года; “Şıxdərə yaşayış yerində arxeoloji qazıntılar”, “1971-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatlar” məcmuəsi. Bakı, 1972. s.12-14.; Глиняные саркофаги, найденные на территории Азербайджана. АММ, VII с. Bakı, 1973, s.145- 150 və bir çox digər əsərləri, o cümlədən 1982-ci ildə nəşr olunan “Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV – b.e. III əsrləri)” adlı monoqrafiyası Azərbaycan tarixşünaslığına qiymətli töhfə olmuşdur. Müəllifin sözügedən monoqrafiyasında Qafqaz Albaniyasının mərkəzi hissəsini əhatə edən Şirvan və Həftəran ərazilərindəki Göyçay, Girdimançay, Ağsuçay hövzələrinin e.ə. IV – b.e. III əsrlərinə aid olan əhali məskunlaşmasına dair ərazilərimiz zəngin maddi mədəniyyət nümunələri əsasında tədqiq olunmuşdur.

Azərbaycan tarixinin görkəmli tədqiqatçılarından biri də 1940-1945-ci illərdə BDU-nun tarix fakültəsində təhsil almış, 150-dən çox nəşr olunmuş əsərin, o cümlədən, 10 monoqrafıyanın müəllifı olan **İqrar Əliyevdir**. Azərbaycanın bir çox ərazilərində , o cümlədən Qəbələ, Şamaxı, Naxçıvan, Ağsu, İsmayıllı, Lənkəran, Astara və bir çox digər rayonlarında aparılan arxeoloji ekspedisiyaların işində yaxından iştirak edərək, araşdırdığı problemlərin həllində həmin materiallardan geniş surətdə bəhrələnmişdir. Onun 1960-cı ildə nəşr olunan Midiya tarixi, 1989-cu ildə nəşr olunan Atropatena tarixinin oçerki, 1989-cu ildə nəşr olunan Dağlıq Qarabağ: Tarix. Faktlar. Hadisələr, 1995-ci ildə rus dilində, 1993-ci ildə Azərbaycan dilində nəşr olunan “Azərbaycan tarixi” və bir çox digər qiymətli tədqiqat əsərlərində xalqımızın formalaşmasında iştirak etmiş bir çox etnosların məskunlaşması, miqrasiyası ilə bağlı mühüm məsələlər öz həllini tapmışdır. Sözügedən əsərlərin məzmunundan bəlli olur ki, bəşər tarixi üçün böyük nəticələri olan, bir çox xalqların, millətlərin yaşadıqları indiki ərazilərin məskunlaşmasının müasir mənzərəsinin formalaşmasında mühüm demoqrafik hadisə olan, əhali məskunlaşmasına ciddi təsir göstərən miqrasiya prosesləri və onları törədən səbəblər Azərbaycan xalqının tarixindən də yan keçməmişdir. İqrar Əliyev "Atropatena tarixinə dair oçerk" adlı kitabında yazır ki, Mananın midiyalılar tərəfindən fəth edilməsi regionun etnik taleyində həlledici rol oynamışdır. Müəllifin fikrincə, Cənubi Azərbaycan ərazisində Midiya əhalisinin kütləvi surətdə miqrasiya edərək, Manna bölgəsində məskunlaşması prosesi eramızdan əvvəl II minilliyin axırları – I minilliyin əvvəllərində xeyli güclənmişdir.İ.Əliyevin yuxarıda qeyd etdiyimiz əsərindən aydın olur ki, mannalıların yeni fəth edilmiş ərazilərə intensiv miqrasiyası, assimilyasiya prosesini sürətləndirərək, artıq proəhəməni dövründə onların tədricən midiya tayfaları ilə rəvan bir şəkildə birləşməsinə əlverişli zəmin yaratdı [23, s.22-25].

XX əsrin II yarısı Azərbaycan tarixşünaslığında qədim dövr şəhərlərimizin şəhərsalma xüsusiyyətləri,yaranması səbəbləri, təyinatı, müdafiə istehkamlarının memarlıq elementləri, yaşayış sahələrinin ölçüləri, o cümlədən əhali məskunlaşması ilə bağlı məsələlər öz əksini tapdı.

Sözügedən dövrdə şəhərlərdə bir tərəfdən onun əlverişli coğrafi mövqeyi o cümlədən, buraya əhali axınları ilə əlaqədar məskunlaşma prosesinin intensiv surətdə davam etməsi ilə əhali artımının baş verməsi, digər tərəfdən yurdumuzu qarət etməyə, ələ keçirməyə, yaxud yolu buradan keçən çoxsaylı tayfaların dağıdıcı təsirləri nəticəsində əhalinin azalması baş verirdi. Sözügedən dövrün tanınmış tədqiqatçılardan olan 1955-60-ci illərdə BDU-nun tarix fakültəsində təhsil alan **Solmaz Qaşqayın** fikirincə Vətənimizə qarşı təşkil edilən hücumların çoxu əksər hallarda məhz qarətçilik xarakteri daşımışdır. Onun“Manna dövləti” adlı kitabında oxuyuruq: “III Salmanasar Mannanın adını ilk dəfə çəkəndə buradan “saysız-hesabsız qaramal və davar tələb edirdi” [15, s.81]. Müəllif mənbələrə istinadən: “I Argişti Aza vilayəti və Mannada külli miqdarda mal-qara ələ keçirir. O, məlumat verir ki, 2411 baş qaramal, 6140 baş davar, 179 at və 62 dəvə aparmışdır” [15, s.81].

Azərbaycan şəhərlərinin yaranması və məskunlaşması tarixinə dair maraqlı elmi mülahizələri ilə diqqət çəkən, 1941-ci ildə BDU-nu bitirmiş və universitetdə baş müəllim vəzifəsində çalışan Azərbaycanın ilk qadın tarixçi-alimi **Sara Aşurbəyli** haqlı olaraq qədim yaşayış yerlərinin və onların əsasında inkişaf edərək təşəkkül tapan şəhərlərin meydana gəlməsində əlverişli təbii – cofrafi mövqeyin, zəngin təbii sərvətlərin: mis və dəmir filizi, neft və duz mədənlərinin istismar olunduğu ərazilərin mühüm amillər kimi dəyərləndirmişdir. O, Bakının yaranması taixindən bəhs edərək: “Bakı ətrafı ərazilərdə neft və duz mədənlərinin çoxluğu, o cümlədən ticarətin aparılması üçün dənizin sahilində əlverişli təbii limana malik olması qədim zamanlardan insanları Bakıya (gəlməyə – A.M.) cəlb edir-

di" – deyə, yazırdı [24, s.37]. Müəllifin məskunlaşma məsələsinə belə yanaşması bizi qədim insanların yaşadıqları əraziləri artıq məskun etməzdən əvvəl tədqiq etmələri qənaətinə gətirir. Başqa sözlə desək, məskunlaşmanın baş tuta biləcəyi ərazi qədim insanları rahat və təhlükəsiz yaşaya bilmələri üçün vacib olan xususiyyətləri ilə cəlb etməli, onları maraqlandıra bilməliydi. Bəzi alimlər Abşeronda, o cümlədən Bakıda əhali məskunlaşmasının artıq e.ə. III-II minilliklərdən mövcud olduğunu söyləsə də S.Aşurbəyli məskunlaşması tarixi ilə bağlı fərqli fikir söyləyərək: "Bakı təkcə Azərbaycanın deyil, bütün Yaxın Şərqin iqtisadi və mədəni mərkəzlərindən olan qədim şəhərlərindən biridir. Bakının yaşayış məntəqəsi və şəhər kimi nə zaman meydana gəlməsi məsələsi onun arxeoloji cəhətdən zəif öyrənilməsi həmçinin mənbələrin kasadlığı üzündən hələ də müəyyən edilməyib"- deyə, yazmışdır [24, s.37].

1958-ci ildə BDU-nun məzunu olan tarixçi alim **İlyas Babayev** Azərbaycan ərazisində hələ orta tunc dövründə təşəkkül tapan, antiq dövrdə isə nəinki Cənubi Qavqazın, eləcə də Yaxın Şərqin ən inkişaf etmiş yaşayış məskənləri olan şəhərlərimiz, əhali məskunlaşması ilə bağlı məlumatların kasadlığına hər zaman xüsusi həssaslıqla yanaşmışdır. Onun fikrincə həqiqətən də bəzən tarixi qaynaqlarda Qafqaz Albaniyası haqqında cəmiyyət həyatının bir çox sahələrinə dair müfəssəl məlumatlar verilsə də şəhərlərimiz, əhali məskunlaşması haqqında ya susulur, yaxud da ən yaxşı halda bir – iki cümlə olur. Məsələn, Qafqaz Albaniyası haqqında digər antik dövr müəllifləri ilə müqayisədə daha geniş məlumat verən Strabon özünün məşhur 17 cildlik "Coğrafiya" əsərinin 11-ci cildində cəmi bir neçə kəlmə söz deyir: " Aynianalılar Utidə (Uti əyalətində – A. M. ) şəhər tikdilər, yaxud saldılar. Anariaka şəhəri də burada yerləşir". İ.Babayev "E.ə. IV – b.e. III əsrlərində Qafqaz Albaniyasının şəhərləri" adlı kitabında Strabonun Ermənistan və Gürcüstanın şəhərləri, hətta bu ölkələrin şəhərlərinin tikinti texnikası və tikinti materialları haqqında dolğun məlumatlar verdiyi halda nədənsə Qafqaz Albaniyasının şəhərləri haqqında çox az yazmasından bəhs edərək, İberiyanın məskunlaşması ilə bağlı ondan belə bir iqtibas gətirir: "Həqiqitən də İberiya əsasən şəhərlərlə daha çox məskunlaşmışdır" [25, s.52]. İstər-istəməz belə bir təbii sual yaranır, görəsən Strabonun Qafqaz Albaniyasının əhalisi ilə bagli yazılarında hər hansı bir təhrif, anlaşılmazlıq yaxud dövrümüzədək gəlib bizə çatmayan hər hansı bir məlumat yoxdurmu? Axı necə ola bilər ki, mühüm geostrateji ərazidə fəaliyyət göstərən, şəhərləri beynəlxalq əhəmiyyət kəsb edən tranzit ticarət yolları üzrində yerləşən, Qafqaz Albaniyası zəif məskunlaşsın, yaxud sıx əhaliyə malik olmasın? Rusiyalı tədqiqatçı A.Krımskiyə görə, Strabonun əsərinin üzü köçürülərkən onun müəyyən səhifələri itmişdir [27, s.52]. İ. Babayev haqlı olaraq hesab edir ki, Strabonun Qafqaz Albaniyasının şəhərləri (o cümlədən də şəhərlərin məskunlaşması – A.M.) haqqında məlumat verməməsi ilk növbədə onun informatorlarının problemlə bağlı məlumatlara malik olmaması imiş [25, s.52]. İ.Babayevin Azərbaycan tarixşünaslığına böyük töhfə olan bu kitabında müəllifin Qafqaz Albaniyasında antik dövrdə ilk növbədə əhalinin təbii və mexaniki artımı səbəblərlərindən sıx məskunlaşması ilə bağlı yurdumuzun daha iri ərazilərə malik olması fikri ilə rastlaşırıq. Görəsən müəllifin belə bir qənaətə gəlməsinə hansı amillər təsir göstərə bilərdi? İ.Babayevin yuxarıda deyilən faktlara, o cümlədən Qafqaz Albaniyası ordusunun sayı haqqındakı məlumatlara istinad edərək, gəldiyi qənaət tarixi demoqrafik baxımdan son dərəcə böyük elmi əhəmiyyət kəsb edir. Bəli, müəllifin məhz antik dövrdə Qafqaz Albaniyasında əhalinin sıx məskunlaşması və ölkənin böyük hərbi potensiala malik Roma kimi qüdrətli imperiyanın hərb maşınına duruş gətirə biləcək güclü, çoxsaylı orduya malik ola bilməsi faktlarına istinad edərək: "Bütün hallarda Albaniya antik dövrdə kifayət qədər sıx məskunlaşmış iri əraziyə malik olmuşdur" [25, s.51].

XX əsrin ikinci yarısı Azərbaycan tarixşünaslığında orta əsrlər dövrünə dair tədqiqat əsərlərindən danışarkən Azərbaycan tarixinin görkəmli tədqiqatçısı XX əsrin 50-ci illərinin sonlarında BDU-da müəllim işləmiş **Ziya Bünyadovu** xatırlamamaq olmur. Belə ki, Z.Bünyadov 1965-ci ildə nəşr olunan "Azərbaycan VII-IX əsrlərdə" adlı monoqrafiyasında sözügedən problemə dair yazır: "Azərbaycan əhalisinin türkləşməsi məsələsi, illər boyu davam etmiş bu prosesin başlanğıcının aydınlaşdırılması çox mürəkkəbdir və bu məsələ indiyədək həll edilməmişdir. Bəzi tədqiqatçıların etdiyi kimi, türkləşmənin XI-XII əsrlərdə baş verdiyini qəbul etmək səhv olardı. Türkləri Azərbaycan ərazisinə kənardan gəlmiş bir ünsür hesab etmək də səhvdir, çünki onda, yerli böyük və çox yığcam türk tayfa təşəkküllərinin varlığına göz yumulur". Göründüyü kimi, digər tədqiqatçılardan fərqli olaraq Z.Bün-

yadov türklərin Azərbaycana kənardan gəlməsi fikri ilə nəinki barışmır, əksinə Vətənimizin tarixin ən qədim çağlarından türkdilli tayfaların məskunlaşdığı ərazi olmasını elmi baxımdan daha düzgün olması qənaətinə gəlir. Görkəmli alim fikrinə davam edərək: "Türkləşmə prosesi yalnız türk aborigenlərin cənubdan gələn oğuzlar və şimaldan gələn qıpçaqlarla qarışması nəticəsində, bunların assimilyasiyasından sonra başlandı və getdikcə sürətlənib XI-XII əsrlərdə qurtararaq, Azərbaycan və Arran ərazisində müasir Azərbaycan xalqının təşəkkül tapması ilə nəticələndi" – deyə, yazmışdır [5, s.171].

Z.Bünyadov Azərbaycanda müxtəlif dillərdə danışan, çoxsaylı etnosların və xalqların məskunlaşmasını özünəməxsus bir xüsusiyyət kimi qeyd edir. Məhz bu xüsusiyyət: "Azərbaycan əhalisinin ərəbləşməsinə mane olmuşdur". Müəllif Qafqaz albanların ərəb xilafəti dövründəki vəziyyətindən bəhs edərkən: "Ola bilsin ki, Arran əhalisinin bir hissəsi (albanlar) çox tez ərəbləşməyə məruz qalıb ərəblərlə qaynayıb-qarışmış, sonralar isə səlcuq türkləri gəldikdən sonra ərəblərlə birlikdə türkləşməyə məruz qalmışlar." – deyə yazır [5, s.170].

1941-1958-ci illərdə BDU-da müəllim kimi fəaliyyət göstərən **Məmmədəli Şərifli** çoxsaylı türk tayfalarının Azərbaycana tarixən şimaldan gəldiyini və burada əvvəldən məskun olan türkdilli etnoslarla çox tez qaynayıb-qarışdığını həm etnik qohumluqla, həm də ərazinin coğrafi mövqeyi ilə izah edirdi: "X əsrdə Şirvan ərazisində müxtəlif tayfaların olmasının başlıca səbəbi bu ölkənin yaşayış üçün əlverişli olması, hərbi-strateji əhəmiyyətə malik olması, şimaldan cənuba və cənubdan şimala keçib gedən tayfaların burada məskən salması və sair bir sıra tarixi amillərlə izah edilməlidir". M.Şərifli elə bu səbəbdən də istər Qafqazda, istərsə də Azərbaycanda öz dilləri olan yüzlərlə etnosun məskunlaşmasını da bu səbəblə izah edir və fikrini əsaslandırmaq üçün ilkin mənbələrə müraciət edir: "Qafqaz dağlarında yaşayan tayfalar və onların dilləri haqqında ən dəqiqləşdirilmiş məlumatı İbn Hövqəl verir. O yazır ki, deyilənlərə görə Qafqaz dağlarında yaşayan əhali üç yüz altmış dildə danışır, mən əvvəllər özüm bir çox şəhərləri görməyənə qədər bu şəhərlərin hər birində türk (Azərbaycan) və fars dillərindən başqa yerli dillərin mövcud olmasınadək bunu inkar edirdim" [20, s.35-36]. M.Şərifli Azərbaycan xalqının təşəkkülü prosesində müxtəlif türkdilli və digər tayfaların fəal iştirak etdiyini, o cümlədən, bu hadisənin öz əksini yaşayış məskənlərində əks etdirdiyini də əminliklə söyləmişdir: "... Hələ X-XI əsrlərdən başlayaraq təşəkkül etməkdə olan Azərbaycan xalqının tərkibinə bu tayfaların əksəriyyəti qarışıb assimilyasiya etmişdir. Bunlardan bəziləri öz xüsusiyyətlərini və dilini zəmanəmizə qədər saxlamışdır. Məsələn, xəzərlər, albanlar, zıxlar, şəkinlər, dudainlər və başqa tayfaların yalnız adları və yaxud adları ilə bağlı şəhər, kənd, dağ və yer adları qalmışdır." [20, s.36].

Ailə insanların həyatının təşkili formalarından biri kimi həm ayrılıqda hər bir şəxsiyyətin, həm də bütövlükdə cəmiyyətin təşkili və təkamülündə böyük əhəmiyyət kəsb edir. Ailənin tədqiqi XX əsrin ikinci yarısı və XXI əsrin əvvəlləri Azərbaycan tarixşünaslığında əsas istiqamətlərdən biri kimi diqqət çəkir. Məhz bu baxımdan 1958-ci ildə Bakı Dövlət Universitetinin tarix fakültəsinin məzunu olmuş Azərbaycan ailəsinin tarixi inkişaf dinamikasını araşdıran **Qiyasəddin Qeybullayevin** elmi əsərləri böyük rol oynayır. Onun əsərlərində mürəkkəb sosial-mədəni hadisə olan, yarandığı andan insan həyatın təbii-bioloji, əxlaqi, psixoloji və iqtisadi tərəflərini üzvi şəkildə əhatə edən ailənin spesifikliyi və unikallığı bütün təfərrüatı ilə araşdırılır. Q. Qeybullayevin "Azərbaycanlılarda ailə və nikah" adlı iki cilddən ibarət əsərinin unikallığı ondan ki, orada burada ailə cəmiyyət həyatının demək olar ki, bütün sahələrinə nüfuz edən sosial model kimi təqdim edilir. Sözügedən kitabda müəllif mənbələrə əsaslanaraq nikah formaları, (təkkəbinlilik, ikiarvadlılıq) nikah qaydaları (ekzogam, endoqam), nikah adətləri (beşikkərtmə), levirat, sororat, kuzen nikahları, qızqaçırtma yolu ilə olan nikahlardan bəhs edilir [16, s.120-130] Müəllif yazırki azərbaycanlılarda arasında tarixən ikiarvadlılığın əsas səbəbi kişinin birinci arvaddan uşağının olmaması bəzi hallarda isə oğlan uşağının olmaması idi [16, s.122]. Birinci cildin davamı olan cəmi 2 fəsildən 4-cü və 5-ci fəsillərdən ibarət olunur 2-ci cilddə əsasən doğum və uşaqların ailədə tərbiyəsindən, o cümlədən Azərbaycanda sovet hökuməti dövründəki ailə məişətində baş verən dəyişikliklərdən bəhs edir. Qeyd etmək yerinə düşərdi ki kitabın 2-ci cildində də müəllif etnoqrafik materiallara üstünlük verərək ailəcanlılığı ilə seçilən azərbaycanlı ailəsinin spesifik xüsusiyyətlərini, incəliklərinin tədqiq və təsvir etməyə nail olmuşdur. Sözügedən kitabı diqqətlə nəzərdən keçirdikdə bəlli olur ki, ailə nikah və ya qohumluğa əsaslanan, ümumi həyat və qarşılıqlı məsuliyyətlə bağlı olan insanların birliyidir. Bəşəriyyətin bütün tarixi boyu insan cəmiy-

yətinin sosial strukturunun zəruri tərkib hissəsi olan və çoxsaylı sosial funksiyaları yerinə yetirən ailə həm də nəsilartımı ilə bağlı minilləri aşıb gələn dəyərlərin, inancların qorunub saxlanıldığı məbəddir. İkinci cilddə müəllif istər toyla, istərsə də ailənin təşkili, yeni üşaq doğan anaların, yeni doğulan uşaqların bəd ruhlardan müdafiəsi, müalicəsi (türkəçarə, çoxsaylı ayinlərin, məsələn, doğum adətlərinin əcdada sitayişlə bağlı ayinlərin icrası və s.) ilə bağlı etnoqrafik nümunələrdən həddən artıq istifadə etmişdir [16, s.312-314]. Demoqrafik münasibətlərin hər bir tipi toy və ailə ənənələrinin tarixi təcrübə ilə qazanılmış, seçilmiş, qorunub saxlanılmış dəyərlər sisteminə malikdir. Bu mənada sözügedən kitabın birinci cildində diqqət cəlb edən məqamlardan biri də nigah və toyla bağlı qədim, mərasim və inancların mifik köklərinin (məsələn, üzüyün günəşin simvolu olması, sağdıs və soldış, gəlin aparmağa gələnlərin qız evindən nəyi isə oğurlaması) kimi adətlərin araşdırılmasıdır [16, s.228-263]. Tarixi inkişaf, məhsuldar qüvvələrin tərəqqisi və insanların həyat tərzində baş verən dəyişikliklər demoqrafik münasibətlərin xarakter və xüsusiyyətlərini vaxtaşırı dəyişir.

BDU-nun şərqşünaslıq fakültəsində təhsil almış **Oqtay Əfəndiyevin** Səfəvi dövlətinin tarixinə dair yazdığı əsərlər də böyük maraq və əhəmiyyət kəsb edir. Müəllifin 1961-ci ildə nəşr edilən “XVI əsrin əvvəllərində Azərbaycan Səfəvi dövlətinin yaranması” adlı əsərində Osmanlı-Səfəvi müharibələrinin xalqın sosial-iqtisadi vəziyyətini son dərəcə ağırlaşdırdığı faktoloji materiallar əsasında tədqiq etmişdir [32].

1826-1930-cu illərdə BDU-nun Şərqşünaslıq fakültəsində təhsil almış akademik **Əlisöhbət Sumbatzadənin** 1952-ci ildə işıq üzü görən “XIX əsrdə Azərbaycanın Rusiyaya birləşdirilməsinin ölkə əhalisinin artımına mütərəqqi təsiri” adlı elmi məqaləsini tarixi demoqrafiyaya dair ilk elmi əsər hesab etmək olar [29]. Sözügedən məqalədə sovet ideologiyasının təsiri aydın şəkildə hiss olunsa da müəllif Gülüstan və Türkmənçay müqavilələrindən sonra xanlıqlar arasında daxili siyasi çəkişmələrin dayanması səbəbindən Azərbaycanda yaranan nisbi siyasi sabitliyi əhali artımı üçün vacib amil kimi dəyərləndirir. Onun 1964-cü ildə nəşr olunan “XIX əsrdə Azərbaycan sənayesi” adlı kitabı ilə Vətən tarixşünaslığında iqtisadi tarix kimi yeni bir elmi istiqamətin əsası qoyulmuşdur [30]. Müəllifin “XIX əsrdə Azərbaycanın kənd təsərrüfatı”, “Azərbaycanlılar - xalqın etnogenezi və formalaşması” kimi monoqrafiyaları da tarixşünaslığımıza qiymətli töhfə hesab etmək olar [28; 31]

1977-ci ildə BDU-nun Tarix fakültəsini bitirmiş, hazırda AMEA-nın Tarix İnstitutunun baş direktoru olan **Kərim Şükürov** Azərbaycanda demoqrafiyaya dair ilk ensiklopedik lüğəti tərtib etmişdir [22], Müəllifin “Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək)” adlı irihəcmli monoqrafiyasında isə Azərbaycan əhalisinin öyrənilməsinin inkişafı tarixi, mənbəşünaslıq bazası geniş şəkildə araşdırılmışdır [21].

1949-cu ildə BDU-nun Tarix fakültəsini bitirmiş **Qara Əhmədov** “Orta əsr Beyləqan şəhəri” adlı əsərində əhali məskunlaşması, əhalinin təbii və antropogen səbəblərə görə artıb-azalması kimi mühüm demoqrafik prosesləri təfərrüatı ilə tədqiq etmişdir. Həmin əsərdə müəllif monqol ordusunun dağıdıcı hərəkətləri ilə bağlı yazır ki, XIII əsrin 20-30-cu illərində Orta və Yaxın Şərqin siyasi xəritəsində yenidən böyük dəyişikliklər baş verdi. Bu dəfə siyasi səhnəyə monqol-tatar tayfalarının başçısı Çingiz xan çıxır. Monqollar ən qısa müddətdə Xarəzmşahlar dövlətini darmadağın edərək Orta Asiya, İran və Zaqafqaziya ölkələrini fəth etməyə nail oldular. O,əhalinin sayının kəskin surətdə azalması ilə müşayiət olunan demoqrafik vəziyyətin pisləşməsində monqolların hücumlarının dağıdıcı rolunu xüsusilə qeyd edir:” Qeyd edək ki, Bəlx şəhəri dağıdılandan sonra cəmi 100 nəfər sağ qalmışdır.” Müəllif yazır ki, başqa ölkələrdə olduğu kimi Azərbaycanda da monqolların istilası yerli əhaliyə çox baha başa gəldi. Belə ki, monqolların ilk və ən güclü zərbəsi Aran şəhərləri arasında Beylaqan şəhərinə endirildi. O, İbn Əsirin, Yaqut Həməvinin, Zəkəriyyə ibn Məhəmməd ibn əl-Qəzvininin və bir çox digər orta əsr müəlliflərinin məlumatlarına əsaslanaraq: “Beylaqanı ələ keçirdikdən sonra monqollar heç kəsə aman vermədilər. Körpə, qadın, qoca demədən hər kəsi hətta hamilə qadınların qarınlarını yarıb körpələri belə çıxarıb məhv etdilər.”-deyə, onlardan iqtibaslar gətirir, o cümlədən qeyd edir:”Bizim üçün müsbət, daha əhəmiyyətli cəhət ondan ibarətdir ki, Beyləqan şəhərinin monqollar tərəfindən dağıdılması ilə bağlı mənbələrin verdiyi məlumatlar arxeoloji qazıntıların nəticələri ilə üst-üstə düşür” [10, s.85].

1981-ci ildə BDU-nun Tarix fakültəsini bitirmiş, hazırda universitetin “Arxeologiya və etno-

qrafiya" kafedrasının müdiri olan **Tarix Dostiyev** isə Şəmkir şəhər yerində arxeoloji tədqiqatlar aparaq əldə etdiyi artefaktlar əsasında ərsəyə gətirdiyi monoqrafiya və məqalələrində əhali məskunlaşmasına əlverişli şərait yaradan amilləri tədqiq etmişdir. Məsələn, müəllif son dövrdə nəşr olunan "Arxeologiya" adlı dərsliyində vaxtilə sıx məskunlaşması ilə seçilən Şabran xarabalıqları haqqından bəhs edərkən yazır: "Sakit relyef şəraiti, təbii maneələrin olmaması, kifayət qədər su ehtiyatı burada şəhərsalma üçün əlverişli şərait yaratmışdır" [9, s.366]. Müəllif Şəmkir şəhər yerindən tapılmış "minai" tipli fayans qablar. // Azərbaycan arxeologiyası, 2015, №1, s. 82-92; Orta əsr Şəmkir şəhərinin basma naxışlı bədii keramikasının bəzi nümunələri // Azərbaycan arxeologiyası, 2015, №2, s. 47-57. Şəmkir şəhərinin səlcuq dövrü bədii keramikasının bəzi nümunələri // BDU-nun Xəbərləri, 2016, N1, səh. 84-9 adlı tədqiqat əsərlərində də bir çox tarixi demoqrafik problemləri işıqlandırmışdır.

XX əsrin əvvəllərində Cənubi Qafqazda cərəyan edən hadisələr Şimali Azərbaycanın sonraki ictimai-siyasi taleyinə, o cümlədən demoqrafik vəziyyətinin yeni düzəminə ciddi təsir göstərdi. Vətən tarixşünaslığında Azərbaycan torpaqlarında, o cümlədən Qarabağ bölgəsində və Şuşada ermənilərin sayının çarizmin köçürmə siyasəti nəticəsində XIX əsrin əvvəllərindən etibarən qısa zaman kəsiyində artmasına diqqət yetirərkən buna münbit şərait yaradan səbəblərin XIX əsrin birinci yarısında Cənubi Qafqazda cərəyan edən siyasi proseslərlə bağlılığını aydın şəkildə görmək olur. Vəziyyətin belə bir hal alması bəzən soydaşlarımızın öz yurdlarını tərk etmələri ilə də nəticələnirdi: "...1805-1813-cü illərdə təkcə Qarabağı məcburi tərk etmiş azərbaycanlı ailələrin sayı 4845-dən çox idi" [14, s.27]. 1978-ci ildə BDU-nun məzunu olmuş, hazırda universitetin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının müdiri olan **Anar İsgəndərov** bu məqama diqqət yetirərək yazır: "XIX əsrin birinci yarısında Şimali Azərbaycanın müxtəlif bölgələrində başlanmış qaçqınçılıq və köçkünlük çar Rusiyasının müstəmləkəçilik siyasətinin, milli ədavətin, aramsız müharibələrin bilvasitə nəticəsi idi. Azərbaycanlı əhalinin məcburiyyət üzündən Şimali Azərbaycanı tərk etməsi xristianlaşdırma siyasətinin gerçəkləşməsinə daha geniş imkanlar açırdı" [14, s.335]. A.İsgəndərovun həmmüəllifliyi ilə 2017-ci ildə nəşr olunmuş "Tarixi demoqrafiya" adlı dərs vəsaitində əhali artımı və azalması, miqrasiyası, məskunlaşması ilə bağlı tarixi demoqrafiya məsələləri ən qədim dövrlərdən günümüzədək işıqlandırılmışdır [26].

***Nəticə.*** Əhalinin məskunlaşması, təbii və mexaniki artımı, ümumiyyətlə, nəsil artımına təsir edən obyektiv, subyektiv amillər hər zaman əhali problemlərini araşdıran bir çox tədqiqatçıları, o cümlədən Bakı Dövlət Universitetinin tarixçi alimlərinin diqqətini cəlb etmişdir. BDU-nun tarixçi-alimlərinin əsərlərində sözügedən dövrdə əcdadlarımızın öz yerlərini dəyişərək yeni ərazilərdə məskunlaşması səbəbləri ən xirda detalları ilə çox aydın və obrazlı şəkildə təsvir edilmişdir. BDU alimlərinin əhali artımı, azalması, miqrasiyası, o cümlədən məskunlaşmasına dair fikir və konsepsiyaları ilə tanış olarkən belə bir qənaətə gəlmək olur ki, Azərbaycan şəhərlərinin yerləşdiyi son dərəcə mühüm geostrateji mövqe həmişə xüsusi əhəmiyyət kəsb etmişdir. Coğrafi baxımdan çox əhəmiyyətli yerlərdə salınan, əhali sayının çoxluğu ilə seçilən bu sənət və ticarət mərkəzləri, saysız-hesabsız yaşayış məntəqələri hətta xarici təcavüzkarların işğalı və dağıdıcı müharibələr zamanı həm əhalinin məskunlaşması baxımından, həm də hərbi-strateji nöqteyi-nəzərdən heç vaxt öz əhəmiyyətini nəinki, itirməmiş, əksinə Qafqazın, eləcə də Yaxın Şərqin ən böyük şəhərləri kimi mövcud olmuşlar.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncam. - https://e-qanun.az/framework/5277 [10.10.2024].
2. Azıx mağarası - Homo nəslinin beşiyidir: Məmmədəli Hüseynovun tədqiqiqatları. Bakı, BDU, 2022, 491 s.
3. Bünyadov T. Azərbaycan arxeologiyası oçerkləri. Bakı, "Azərnəşr", 1960, 236 s.
4. Bünyadov T. Azərbaycanda maldarlığın inkişafı tarixindən. Bakı, "Elm", 1969, 185 s.
5. Bünyadov Z. Azərbaycan VII-IX əsrlərdə. Bakı, "Şərq-Qərb", 2007, 424 s.
6. Cəfərov Ə. Azərbaycan qədim insan məskənidir / Azərbaycan abidələri. Bakı, Azərnəşr, 1989, 125s.

7. Cəfərov Ə. İnsanlığın səhəri. Bakı, "Azərnəşr", 1994, 78 s.
8. Cəfərov Ə. Quruçay dərəsində. Bakı, "Azərnəşr", 1990, 58 s.
9. Dostiyev T. Arxeologiya. Bakı, "Elm və təhsil", 2021, 396 s.
10. Əhmədov Q. Orta əsr Beyləqan şəhəri. Bakı, "Elm", 1979, 197 s.
11. Heydər Əliyev və Bakı Dövlət Universiteti. Bakı 1997,136 s.
12. Hüseynov M. Uzaq daş dövrü. Bakı, Gənclik, 1973, 71 s.
13. Hüseynov M. Yeraltı aləmə səyahət. Bakı, Azərnəşr, 1966, 55 s.
14. İsgəndərli A. Azərbaycan həqiqətləri 1917-1920. Bakı, "Elm və təhsil", 2012, 228 s.
15. Qaşqay S. Manna dövləti. Bakı, "Azərnəşr", 1993, 107 s.
16. Qeybullayev Q. Azərbaycanlılarda ailə və nikah. I hissə. Bakı, "Elm", 1994, 437 s.
17. Mahmudov Y. Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı, "Təhsil", 2015, 547 s.
18. Mahmudov Y. Öyrənilməmiş səhifələr. Bakı, "Gənclik", 1972, 97 s.
19. Məmmədov A. Heydər Əliyev və Azərbaycan Respublikasının Demoqrafik İnkişaf Konsepsiyası. Tarix və onun problemləri, 2023, № 2, Xüsusi buraxılış, s.107-115.
20. Şərifli M. IX əsrin ikinci yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri. Bakı, "Elm", 1978, 343 s.
21. Şükürov K. Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək). Bakı, "Elm", 2004, 974 s.
22. Şükürov K. Demoqrafiya: ensiklopedik lüğət. Üç cilddə. I c. Bakı, "Bakı Universitetinin nəşriyyatı", 2001, 412 s.
23. Алиев И.Г. Очерк истории Атропатены. Баку, «Азернешр», 1989, 159 с.
24. Ашурбейли С.Б. История города Баку. Баку, «Азернешр», 1992, 401 с.
25. Бабаев И.А. Города Кавказской Албании в IV в до н.э. – III в н.э. Баку, «Элм», 1990, 236 с.
26. Искендеров А.Дж., Мамедов А.Б. Историческая демография. Баку, «Elm və təhsil», 2017, 164 s.
27. Крымский А.Е. Страницы из истории Северного Кавказа и Азербайджана (классической Албании). Ленинград, «Изд-во АН СССР», 1934, 107 с.
28. Сумбатзаде А.С. Азербайджанцы – этногенез и формирование народа. Баку, «Элм», 1990, 303 с.
29. Сумбатзаде А.С. Прогрессивное влияние присоединение Азербайджана к России на рост народонаселения страны в XIX веке // ИАНА, 1952, №3 с.79-82.
30. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Баку, «Изд-во АН АзССР», 1964, 500 с.
31. Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX веке. Баку, «Изд-во АН АзССР», 1958, 363 с.
32. Эфендиев О.А. Образование азербайджанского государства Сефевидов в начале XVI. Баку, «изд-во АН АзССР», 1961, 206 с.

**АЙДЫН МАМЕДОВ**
*Доцент кафедры Источниковедения, историографии и методики*
*Бакинского Государственного Университета, доктор философии по истории*

# ВОПРОСЫ ИСТОРИЧЕСКОЙ ДЕМОГРАФИИ В НАУЧНЫХ ТРУДАХ ИСТОРИКОВ-ВЫПУСКНИКОВ БАКИНСКОГО ГОСУДАРСТВЕННОГО УНИВЕРСИТЕТА ВО ВТОРОЙ ПОЛОВИНЕ XX ВЕКА И НАЧАЛЕ XXI ВЕКА

Естественный и механический прирост, расселение и миграция населения в Азербайджане всегда были исторически тесно связаны с социально-экономическими, политическими, культурно-духовными особенностями нашего народа. Следует отметить, что произвольное демографическое исследование изучает процессы, связанные с ростом населения, расселением, миграцией в контексте исторического времени, поэтому граница между общей демографией или любой областью демографии и исторической демографией весьма условна. Демографические

отношения существовали на протяжении всей истории человечества, во все времена, в тесной связи со всеми сферами общества, особенно с производственными отношениями, никогда не теряли своей самостоятельности. Иными словами, как бы ни была велика роль производственных отношений, продиктованных экономической необходимостью, в жизни людей демографические отношения, которые возникают из необходимости продолжения человеческого рода, а главное, существуют объективно независимо ни от чего, всегда были и остаются наиболее приоритетной и ведущей сферой общества. В статье рассматривается творчество наших ученых, обучавшихся или работавших в Бакинском государственном университете, который в настоящее время отмечает свое 105-летие, а также отражающих элементы исторической демографии в своих научных трудах со второй половины XX века до начала XXI века.

*Ключевые слова:* Бакинский Государственный Университет, рост населения, народонаселения, историческая демография, азербайджанская историография.

**AYDIN MAMMADOV**
*Associate Professor of the Department of Source Study, Historiography and Methodology of Baku State University, Ph.D. in History*

## ISSUES OF HISTORICAL DEMOGRAPHY IN THE RESEARCH WORKS OF HISTORIANS-ALUMNI OF BAKU STATE UNIVERSITY IN THE SECOND HALF OF THE XX CENTURY AND THE BEGINNING OF THE XXI CENTURY

The natural and mechanical growth, settlement, and migration of the population in Azerbaijan have always been historically closely connected with the socio-economic, political, cultural-spiritual characteristics of our people. It should be noted that arbitrary demographic research studies processes related to population growth, settlement, migration in the context of historical time, so the boundary between general demography or any field of demography and historical demography is very conditional. Demographic relations have existed throughout the entire history of mankind, at all times, in close connection with all spheres of society, especially with production relations, have never lost their independence. In other words, no matter how great the role of production relations dictated by economic necessity is in people's lives, the demographic relations that arise from the need to continue the human race, and most importantly, exist objectively regardless of anything, have always been and remain the most priority and leading area of society.

The article examines the creativity of our scientists who studied or worked at Baku State University, which is currently celebrating its 105th anniversary, as well as reflecting elements of historical demography in their research works from the second half of the XX century to the beginning of the XXI century.

*Keywords:* Baku State University, population growth, population settlement, historical demography, Azerbaijani historiography.

*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*